QANUN № 01 (351), 2024, s. 22-28

**Musayev Hafiz Məhərrəm oğlu,**
hüquq üzrə fəlsəfə doktoru, general-mayor
E-mail: elchin.gulaliyev1@gmail.com

**UOT 341.4**
**DOI 10.30546/2218-9130. 01.351.2024.22**

# TERRORÇULUĞUN SOSİAL XÜSUSİYYƏTLƏRİ VƏ REGİONAL TƏHLÜKƏSİZLİK MÜHİTİNƏ TƏSİRİ

***Açar sözlər:*** *inteqrasiya, təhdid, regional əməkdaşlıq, terrorçuluq, miqrasiya.*

***Ключевые слова:*** *интеграция, угроза, региональное сотрудничество, терроризм, миграция.*

***Keywords:*** *integration, threat, regional cooperation, terrorism, migration.*

Təhlükəsizliyin çoxşaxəli bir konsepsiya olmasına baxmayaraq, elmi dairələrdə təhlükəsizliyin fərdi və kollektiv səviyyələrdə təməl dəyərlərə təhlükə olması ilə bağlı ümumi razılaşma mövcuddur. Təhlükəsizliklə bağlı araşdırmalarda fərdi, milli və beynəlxalq təhlükəsizlik arasında da müəyyən fərqlər vardır və ən çox diqqət yetirilməli olan analiz səviyyəsi ilə bağlı mübahisələr geniş yayılmışdır. Müasir dövrdə təhlükəsizlik hərbi, ətraf mühit, sosial, iqtisadi və siyasi sektorları əhatə etməklə genişləndirilmişdir. Təhlükəsizliyin mahiyyətinin açıqlaması çoxistiqamətlidir. Lakin bu anlayış təkcə sülh və sabitliyi nəzərdə tutmur.

Qeyd etmək lazımdır ki, ciddi şəkildə beynəlxalq səviyyədə inteqrasiya olunmuş əlaqələr sistemində hər hansı bir dövlətin müstəqil hərəkətləri digər dövlətdə qeyri-sabitliyin artmasına təsir edə bilər və ya bu hal əksinə baş verə bilər. Bəzən dövlətlər arasında birbaşa müzakirə mühitinin və etimadın olmaması səbəbindən bu, dövlətləri öz təhlükəsizliyini təmin etməyə təşviq edir.

Düzgün qurulmuş və reallaşdırılan dövlət siyasəti nəticəsində gücün əldə edilməsi və səmərəli idarə olunması dövlətə qısa müddətdə təhlükəsizliyin təmin olunması ilə bağlı şəraitə hakim olmaq imkanı verir. Bu yanaşmaya görə, imkanları digər dövlətlərdən üstün olan bir dövlət, əhəmiyyətli təhdidlərlə qarşılaşmadan gücünü beynəlxalq səviyyədə səmərəli şəkildə istifadə edə və proqnozlaşdıra bilər. Azərbaycanın yerləşdiyi regionda bütün təhlükə və çatışmazlıqlara qarşı mübarizənin əsasında regional əməkdaşlığın yeni istiqaməti kimi Azərbaycan-Gürcüstan-Türkiyə əlaqələri xüsusi mahiyyəti, o cümlədən əhəmiyyətinə görə fərqlənir [6, s.4]. Bu əməkdaşlıq enerji təhlükəsizliyindən terrorla mübarizəyə qədər çoxsaylı aktual məsələləri əhatə edir.

Müxtəlif tədqiqatçılar təhlükəsizliyin təmin olunmasının, imkanların səmərəli şəkildə konsolidasiyasından qaynaqlandığı fikrini müdafiə edir. Lakin regional aspektdə məsələyə yanaşdıqda region ölkələrinin və ya subyektlərinin maraqlarının təbiətinə görə əməkdaşlıq əlaqələrini qorumaq həmişə asan olmur. Buna baxmayaraq müasir beynəlxalq və regional münasibətlər sistemi beynəlxalq hüququn tələblərini üstün tutur,

ölkələr arasında qarşılıqlı əməkdaşlığı təşviq edir.

Bildiyimiz kimi, milli maraqlar ölkənin inkişafının səviyyəsindən, sosial və siyasi formasından, o cümlədən müxtəlif cəhətlərindən asılıdır. Bir sıra milli maraq mahiyyəti kəsb edən məsələlər var ki, onlar bütün region ölkələri üçün ümumi xarakterə malikdir və aşağıdakılardır [2, s. 43]:

- ölkənin ərazi bütövlüyü;
- siyasi baxımdan suverenliyini qoruması;
- iqtisadi inkişafa nail olması;
- siyasi və iqtisadi formasiyanın qorunması;
- milli və mədəni dəyərlərin qorunması, eləcə də inkişafı.

Hazırda regional əməkdaşlıq beynəlxalq səmərəli əməkdaşlıq mühitinin formalaşması üçün əsas rolunda çıxış edir. Buna görə də ilk növbədə regional səmərəli əməkdaşlığa təhdid ola biləcək amillərin qarşısının alınması diqqət mərkəzində saxlanılmalıdır. Regional səviyyədə təhlükəsizliyə təhdid ola biləcək əsas dağıdıcı amil terrorçuluqdur və terrorçuluq müxtəlif formalarda təzahür edir.

Müasir dövrdə terrorçuluğu real, genişmiqyaslı və uzunmüddətli təhlükə adlandırmaq olar. Hal-hazırda bu, milli səviyyədən regional və hətta beynəlxalq səviyyəyə qədər bütün səviyyələrdə ölkələrin inkişafına təsir edən ən mühüm amillərdən biridir. Müasir dövrün terror aktları qəddarlığı və çox sayda qurbanların olması ilə seçilir. Terror aksiyalarının təşkilatçıları kütləvi informasiya vasitələrinin ən çox diqqətini fəaliyyətlərinə cəlb etmək, eləcə də cəmiyyətdə maksimum rezonans yaratmaq üçün əhaliyə mümkün olan maksimum ziyan vurmağa çalışırlar. Müasir terrorçuluğun siyasi mübarizə metodundan düşmənə ziyan vurma vasitəsinə və eyni zamanda müəyyən fikri geniş ictimaiyyətə çatdırmaq vasitəsinə çevrilərək daha rasional və praqmatik hala gəldiyini iddia etmək olar.

Məlumdur ki, hazırda terrorçuluq problemi sözün əsl mənasında qlobal xarakter almışdır. Bu fenomenlə mübarizə müasir inkişaf mərhələsində bəşəriyyətin qarşısında duran ən vacib vəzifələrdən birinə çevrilir. Beynəlxalq hüquq baxımından bu problemin həlli üçün «terrorçuluq» və «beynəlxalq terrorçuluq» kimi anlayışların vahid və aydın tərifini inkişaf etdirmək və bu sahədə terminologiyaya universal bir yanaşma ortaya qoymaq xüsusilə vacibdir. Bu məsələnin vacibliyinə baxmayaraq, bu gün dünyada «terrorçuluq» anlayışının vahid şərhi yoxdur. Həm müxtəlif dövlətlərin qanunvericilik aktlarında, həm beynəlxalq səviyyədə qəbul edilmiş sənədlərdə, həm də müvafiq mövzulara həsr olunmuş elmi əsərlərdə bu fenomenin tərifləri olduqca ziddiyyətlidir. Bu cür uyğunsuzluqların səbəbi kimi fərqli dövlətlərin terror təhlükəsini və onun mənbələrini fərqli şəkildə müəyyənləşdirməsi, qanunverici və hüquq mühafizə orqanlarının bu məsələyə konkret vəzifələri və dövlət maraqlarını rəhbər tutaraq fərqli yanaşmasıdır.

Elmi əsərlərdə terrorçuluğun təriflərinin, həmçinin əlaqəli anlayışların müxtəlifliyindən danışırıqsa, yuxarıda göstərilənlərə əlavə olaraq qeyd etmək olar ki, burada terminologiya və təriflərin seçilməsi, eləcə də onların şərhi əsasən terrorçuluğun bir fenomen kimi öyrənilməsinin məqsədlərindən asılıdır.

Həm yerli, həm də xarici mütəxəssislər, eləcə də bir sıra beynəlxalq və dövlət təşkilatları tərəfindən istifadə olunan terror fəaliyyətinin müxtəlif təriflərini təhlil edərkən bu fenomenə baxışlardakı uyğunsuzluqlar və onun məzmunu ilə bağlı müxtəlif fikirlər ortaya çıxır.

Qeyd etmək lazımdır ki, mədəni, eləcə də ideoloji praktikada «terror» və «terrorçuluq» anlayışı öz müasir mənasında 1791-1794-cü illər Fransız İnqilabı dövründə istifadə olunmağa başlamışdır. Müasir dövrdə isə terrorla bağlı elmi və digər xarakterli müzakirələr, ilk növbədə, siyasət və hüquqların reallaşdırılması sahəsində qəddar zorakı hərəkətləri özündə birləşdirir [5, s. 4].

Həmçinin, terror rəqiblərə repressiv və sərt münasibət kimi də müxtəlif tədqiqatçılar tərəfindən araşdırılmışdır. Bütün təriflər üçün ümumi olan xüsusiyyət terrorçuluğa ictimai-siyasi cəhətdən şərtlənmiş şiddət kimi yanaşmadır. Ümumiyyətlə, «terror» anlayışının yalnız hər hansı bir sahəyə tətbiq edilməsi terrorçuluq fenomeninin həqiqi mahiyyətini əhəmiyyətli dərəcədə dar çərçivəyə sala bilər. Terrorçuluğun müəyyənləşdirilməsində bu yanaşma müvafiq fenomenin hüquqi mənalandırılması üçün olduqca məqbuldur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində göstərilir: "Terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmədir" [1].

Regional mühitdə terrorçuluq və ekstremizmin baş qaldırması və aktivləşdirilməsi üçün sosial-mədəni şərtlər müasir reallıqların göstərdiyi kimi müxtəlifdir. Lakin son illərdə bir sıra qeyri-ənənəvi formalar da fərqlənir ki, bunlara ekoloji, bioloji və s. aiddir. Eyni zamanda, bütün dağıdıcı tipli və müxtəlif təzahürlərin arxasında terror və ekstremist davranışın yaranmasında, eləcə də aktivləşdirilməsində təşkilatlanmış şəkildə əks olunan ümumi fəaliyyət var. Belə bir fəaliyyət aşağıda sxematik formada təqdim olunan üç mərhələni əhatə edir.




**Sxem.** Terrorçuluq fəaliyyətinin potensial mərhələləri

Terrorçuluq və ekstremizmə qarşı mübarizə bütün mərhələlərdə aparılmalıdır, bunun üçün həssas region daxilində ekstremist potensial təhdidləri müəyyənləşdirmək lazımdır. Birinci mərhələ terror və ekstremist fəaliyyətlərin başlanmasına şərait yaradan şərtlərin aktuallaşdırılması ilə əlaqələndirilir. Məhz bu mərhələdə müvafiq arxetiplərin aktuallaşdırılması, terror layihələrinin antisistemliyinə «xidmət edən» fərdi identifikasiyanın mədəni-antropoloji mexanizmlərinin formalaşması baş verir. Bu, cəmiyyətin sosial qütbləşməsinin kəskinləşməsi və sosial düşmənçiliyin güclənməsi kimi «hərəkətverici» iqtisadi, etirazın qanuni ifadə üsullarının olmaması kimi siyasi və ideoloji, perspektivlərin olmaması kimi fərdi psixoloji olaraq təsnif edilə bilən müxtəlif sosial-mədəni və fərdi amillərlə bağlıdır [7, s. 13].

Bütün bunlar müəyyən subkultural formalarda özünü göstərən sosial-mədəni ekstremist mühitin formalaşmasında öz ifadəsini tapır. İkinci mərhələ bir nəticə kimi potensial ekstremist mühitin subkultural konfiqurasiyalarının yaradılması, subkultural təbiətə malik və bir qayda olaraq şəbəkə prinsipi ilə qurulmuş müəyyən qrupların təşkilati formalaşmasına gətirib çıxarır. Burada terror və ekstremist fəaliyyətin aktivləşdirilməsinin sosial-mədəni və mədəni antropoloji mexanizmləri işə salınır, xəyali və real təhdidlərin layihələri yaradılır. Üçüncü mərhələ başlanmış, aktivləşdirilmiş terror və ekstremist təhdidlərin həyata keçirilməsini, müəyyən bir sosial-mədəni mühitdə müxtəlif terror və ekstremist təşkilatların birbaşa fəaliyyətini əhatə edir. Terrorçuluq və ekstremizmə qarşı mübarizə bütün mərhələlərdə aparılmalıdır, bunun üçün həssas bölgə daxilində ekstremist potensial təhdidləri müəyyənləşdirmək lazımdır. Terror və ekstremist təhdidlərin regional sosial-mədəni kontekstdə müəyyənləşdirilməsi terror və ekstremist davranışın formalaşması sxeminə görə, ekstremist və terror təhdidlərinin başlanması, o cümlədən də aktivləşdirilməsi mərhələlərinin qarşısının alınması imkanlarını özündə ehtiva edir. Bu məsələlər aşağıda qeyd olunan amilin təsiri ilə əlaqədardır:

- iqtisadi;
- siyasi-ideoloji;
- şəxsi-psixoloji;
- mədəni-antropoloji;
- mənəvi-dini.

Müxtəlif statistik, tədqiqat və sosioloji materiallara əsasən vətəndaşlar arasında etnik ekstremizmin və ksenofobiyanın yayılmasının səbəbləri kimi maliyyə vəziyyəti ön plana çıxarır. Bundan başqa digər amil siyasi-ideoloji amillərdir. Siyasi-ideoloji amillər arasında müəyyən edilən amillərdən biri də regional siyasi və ictimai qurumlara inamdır. Regional səviyyədə dövlət qurumlarına inamın olmaması ekstremist və terror təşkilatlarına xalqın maraqlarını ifadə etmək və «legitimlik uğrunda» mübarizə aparmaq hüququnu mübahisələndirməyə imkan verir. Bununla da ekstremist siyasi təşkilatlar tərəfindən legitimliyə meydan oxumağın mümkünlüyü barədə nəticə çıxarmaq olar.

Regional təhlükəsizliyə ən ciddi təhdid olan terrorçuluğun hərəkətverici qüvvəsi kimi miqrasiya müasir inkişaf meyilləri baxımından tədqiq edilməli və müvafiq mexanizmlər inkişaf etdirilməlidir [8, s. 978]. Ümumiyyətlə, miqrasiya siyasəti bizə daha az əhəmiyyətli bir amil kimi görünə bilər. Lakin son zamanlarda artan miqrasiya prosesləri, genişlənən dinlərarası və mədəniyyətlərarası əlaqələr qaçılmaz olaraq getdikcə daha çox sosial, siyasi, dini, iqtisadi, təhsil və digər mədəni problemlərin yaranmasına səbəb olur və fərdin və ya bütün qrupların mədəniyyətlərinin xüsusiyyətlərinə və ya bütövlükdə digər qrupların nümayəndələrinə qarşı dözümsüzlük münasibəti problemini müəyyənləşdirir. Müasir dövrdə nəzarətsiz miqrasiya ekstremizm və hətta terrorçuluq hallarına səbəb ola bilər.

Xarici təcrübənin öyrənilməsi göstərir ki, uğursuz miqrasiya siyasəti millətçi və radikal əhval-ruhiyyənin böyüməsi üçün güclü bir katalizator rolunu oynaya bilər. Qeyd edək ki, Azərbaycan bu məsələdə həyata keçirilən dövlət siyasətinin əsaslılığı, eləcə də hərtərəfliliyi baxımından yerləşdiyi regiondakı ölkələr arasında ən münbit mühitə malikdir [3, s. 105]. Qafqaz və Xəzər regionu təhlükəsizlik mühitində təhdidlərin aradan qaldırılması istiqamətində Azərbaycanın oynadığı aparıcı rol təhlükəsizlik mühitinin əsas bazisini təşkil edir [4, s. 61]. Xüsusilə, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, antiterror əməliyyatları nəticəsində ölkənin bütün ərazisində Konstitusiya quruluşunun bərpa edilməsi regionda yeni əməkdaşlıq platformalarının yaradılması üçün mühüm addım olmuşdur.

Regionumuzda dövlətlərarası münaqişələrin həllində medianın milli zəmində münaqişələri necə təqdim etməsi də mühüm rol oynayır. Etnik müxtəlifliklərin təhdid kimi əks olunması nəinki münaqişələrin həllinə kömək etmir, əksinə, münaqişəli vəziyyətlərin gərginləşməsi üçün zəmin yaradır.

Regional müstəvidə münaqişələrin yaranmasının əsas problemləri arasında aşağıdakılar sadalana bilər:

- millətlərarası ixtilafın qızışdırılması;
- hazırda ən aktual məsələlərdən biri olan su resurslarından istifadə ilə bağlı problemlər;
- işsizlik;
- dini ekstremizm;
- siyasi manipulyasiyaların sürətlənməsi.

Qafqaz və Xəzər təhlükəsizlik mühitində Azərbaycan istisna olmaqla milli dil ilə əlaqəli münaqişə vəziyyətlərinin olması da regional təhlükəsizliyin təmin olunmasında yeni çağırışları formalaşdıran mühüm amillərdən biridir. Bu məsələni problem xarakterli edən əsas xüsusiyyətlər aşağıdakılardır:

- münaqişənin qarşısını almaq strategiyasının zəifliyi;
- münaqişə vəziyyətlərinin mümkünlüyünü inkar etmək;
- faktlar olmadan münaqişə vəziyyətlərinin mövcudluğunun qəbul edilməsi.

Terror fəaliyyətini "stimullaşdıran" amillərin minimuma endirilməsi və onların tənzimlənməsinin beynəlxalq mexanizmlərinin işləkliyinin təmin edilməsi xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan insan hüquqlarının qorunması məsələlərini daimi diqqətdə saxlamaq, beynəlxalq hüquqdan irəli gələn regional mexanizmlərin təkmilləşdirilməsi zəruridir. İnsan hüquqlarının qorunması vasitələri münaqişələrə cavab vermək və sülh, eləcə də sabitliyi təmin etmək üçünü yaradılmışdır [10, s. 26]. Buna görə də terror təhlükəsi problemini həll etmək üçün beynəlxalq insan hüquqlarının qorunması çərçivəsindən istifadə edilə bilər.

Dövlətlər terrorçuluqdan qorunmanı təmin etməlidirlər. İnsan hüquqları sahəsində standartlar dövlətlərin üzərinə yaşamaq hüququnu və digər insan hüquq və əsas azadlıqlarını təmin etmək öhdəliyi qoyur. Terror aktları ümumiyyətlə dövlətlərin öhdəlikləri çərçivəsində qorumalı olduqları bütün hüquqları pozur. Bu o demək deyil ki, terror aktının həyata keçirilməsi dövlətin insan hüquqlarını müdafiə edə bilməməyinin sübutudur. Buna baxmayaraq, dövlət bu hüquqları qorumaq üçün lazımi tədbirlər görə bilmirsə, onların pozulmasına görə məsuliyyətin bir hissəsi ona verilir. Buna görə təsirli bir terrorla mübarizə strategiyası dövlətin insan hüquqları öhdəliklərinin bir hissəsi ola bilər. Çünki terrorçuluq regional təhlükəsizliyi və region ölkələrində insan haqlarını inkar edir.

İnsan hüquqları sahəsində beynəlxalq səviyyədə tanınmış standartlara uyğun olaraq hökumətlərdən bir sıra vacib universal prinsipləri nəzərə almaq və onlara riayət etmək tələb olunur. Bunun üçün dövlət qurumlarından müəyyən bir intizam və hərəkət ardıcıllığı tələb olunur. Terrorçuluqla mübarizə mexanizmləri və insan hüquqları sahəsində hüquqi müdafiə ilə təmin edilmiş standartlar bir-biri ilə sıx bağlıdır. İnsan hüquqlarını rədd edən və ya pozan antiterror qanunları və tətbiqləri insan hüquqları və qanunun aliliyi prinsipləri və demokratik dəyərləri rəhbər tutan bir cəmiyyətdə uğursuzluğa məhkumdur və qəbuledilməzdir.

Qlobal müstəvidə davam edən ikili standartlar müəyyən hallarda ekstremist əhvali-ruhiyyənin təzahürünün mümkünlüyünü istisna etmir. Azərbaycanın yerləşdiyi regionun strateji əhəmiyyəti nəzərə alınaraq qeyd etmək olar ki, cənub, o cümlədən cənub-qərb istiqamətdən regional təhlükəsizliyə təhdid ola biləcək amillər daha güclü olaraq qalır. Cənub istiqamətdən müxtəlif hallarla yanaşı Azərbaycanın sərhəd mövqeyinə görə narkotiklərin qanunsuz dövriyyəsinə cəhdlər, eləcə də miqrasiya problemi

olduqca kəskindir. Narkotiklərin qeyri-qanuni dövriyyəsindən əldə edilən gəlir, bildiyimiz kimi, terrorun əsas maliyyə mənbəyi hesab edilir, həmçinin miqrantların qeyri-qanuni hərəkətinin təşkili insan alveri məsələsini aktuallaşdırır bu da regional təhlükəsizliyin təmin olunmasında ölkənin müvafiq orqanlarının üzərinə əlavə vəzifələr qoyur.

**İstifadə edilmiş mənbələr:**


1. Azərbaycan Respublikasının "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanunu // 18 iyun 1999-cu ildə qəbuı edilnişdir: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/3855
2. Əliyev, F. Milli təhlükəsizlikdə milli maraq və dəyər amili// Təhlükəsizlik ictimai-siyasi, elmi-populyar jurnal, - yanvar-fevral 2019. №01(49), – s. 42-44.
3. Gülməmmədova, Ş. Azərbaycanın sülh strategiyasının formalaşması, prinsipləri, konseptual və hüquqi aspektləri // İpək Yolu, – 2018. № 3, – s.104-117.
4. Quliyev, S. Xəzər hövzəsindəki təhlükəsizlik problemlərinin regional təhlükəsizliyə və əməkdaşlığa təsiri // AMEA Naxçıvan bölməsi, Xəbərlər jurnalı, – 2019. – s. 59-65.
5. Alex, P. Schimd. Definig terorrism // International Centre for Counter – Terrorism, – March, 2023. – p. 50.
6. Chelikpala, M., Veliyev, J. Azerbaijan-Georgia-Turkey: an example of a succesful regional cooperatio // Policy Brief - November, 2015, N 04. – p. 24.
7. Charles, Tilly, Terror as atretegy and relational process // SAGE publications, Vol 46(1-2) – 2005, – p. 11-32
8. Helbling, M., Meierrieks, D.Terrorism and Migration: An overview // British Journal of Political Science, - 2022.52 – p. 977-996
9. Nazala, R. M. New Terrorism: What can the history of terrorism contribute? // Jurnal Hubungan Internasional 8(1), - August 2019; https://doi.org/10.18196/hi.81149
10. Управление Верховного Комиссара ООН По Правам Человека, Права человека, терроризм и борба с терроризмом, Изложение фактов, – 2008, № 32. – 113 с.


**Мусаев Хафиз Магеррам оглу**

## СОЦИАЛЬНЫЕ ХАРАКТЕРИСТИКИ ТЕРРОРИЗМА И ЕГО ВЛИЯНИЕ НА ОБСТАНОВКУ РЕГИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

### РЕЗЮМЕ


В статье исследуются интересы государств с точки зрения региональной безопасности, вопросы обеспечения региональной безопасности в обеспечении эффективного международного сотрудничества и среды безопасности. Подчеркивается, что проблема терроризма в современную эпоху приобрела глобальный характер в истинном смысле этого слова, и в связи с этим борьба с терроризмом стала одной из важнейших задач, стоящих перед человечеством на этапе современного развития. развитие общества.

Собрана и систематизирована информация об источниках, характеристиках и тенденциях развития террористической активности как угрозы региональной безопасности, а также проанализированы исследования зарубежного опыта борьбы с миграционными факторами и влиянием на террористическую активность. Были отмечены вклад Азербайджана в региональную безопасность и его усилия по региональному сотрудничеству.

**Musayev Hafiz Maharram**

**THE SOCIAL CHARACTERISTICS OF TERRORISM AND ITS IMPACT ON THE REGIONAL SECURITY ENVIRONMENT**

**SUMMARY**

In the article, under study are the interests of the states from the aspect of regional security, the issues of ensuring regional security in the provision of effective international cooperation and security environment. It is emphasized that the problem of terrorism in the modern era has taken on a global character in the true sense of the word, and in this regard, the fight against terrorism has become one of the most important tasks facing humanity at the stage of modern development of society.

It was systematized the information on the sources, characteristics and development trends of terrorist activity as a threat to regional security, and also analyzed the research on the foreign experience of combating migration factors and the impact on terrorist activity. The author also notes Azerbaijan's contribution to the regional security environment and its efforts for regional cooperation.

**Redaksiyaya daxilolma tarixi: 12.12.2023**
**Təkrar işlənməyə göndərilmə tarixi: 25.12.2023**
**Çapa qəbul olunma tarixi: 30.12.2023**